

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 118 (21.019)

24 iyun 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Muxtar respublikada taxıl biçini mütəşəkkil şəkildə aparılır





Əkinçiliyin əsas qolu olan taxılçılığa muxtar respublikada mühüm əhəmiyyətli sahə kimi yanaşılır. Aqrotexniki tədbirlərin vaxtlı-vaxtında həyata keçirilməsi və məhsuldar toxum sortlarından istifadə bu sahədə məhsul istehsalının dinamik artımını təmin etmişdir. Bu ilin məhsulu üçün muxtar respublikada 35,7 min hektarda taxıl əkini həyata keçirilmişdir. Hazırda sahələrdə biçin aparılır.

İyunun 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Bərəkət" Toxumçuluq Təsərrüfatının taxıl əkini sahəsinə gəlmiş, taxıl biçininin gedişi ilə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev məlumat vermişdir ki, ötən il "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün ayrılan sahədə torpağın münbitliyinin artırılması məqsədilə meliorativ tədbirlər həyata keçirilmiş, şoranlaşmanın qarşısı alınmış və yeni suvarma xətti çəkilmişdir. 400 hektarlıq ərazidə şırım üsulu ilə yerli iqlim şəraitinə uyğun məhsuldar "Quality" toxum sortu əkilmişdir. Biçinə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 6 kombaynı cəlb olunmuşdur. Hazırda hektardan məhsuldarlıq orta hesabla 20 sentnerdir. Taxıl tədarükündə iştirak edən mexanizator və kombaynçılar üçün lazımi şərait yaradılmışdır.

Ərazidə yeni suvarma sistemlərinin qurulması nəticəsində əlavə torpaq sahələri əkin dövriyyəsinə qatılacaqdır. Bu da "Bərəkət" Toxumçuluq Təsərrüfatının əkin sahələrinin 2 min hektara qədər genişləndirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri ərazinin xəritələşdirilməsi, məhsuldar toxum sortlarının seçilərək rayonlaşdırılması və toxum satışının təşkil olunması barədə tapşırıqlar vermişdir.

## Torpaq sahələrinin su təminatı yaxşılaşdırılır





Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin torpaq sahələrinin suvarma su təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərlə tanış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, Böyükdüz və Xok kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təmin olunması məqsədilə Araz çayından qidalanan "Azərbaycan" nasos stansiyasının 16,6 kilometr uzunluğundakı təzyiqli boru xətti yenilənmiş, mövcud supaylayıcı hovuzda təmir-bərpa işləri aparılmışdır. Yeni boru xətti 2 min hektardan artıq torpaq sahəsində dayanıqlı suvarma tədbirlərinin həyata keçirilməsinə imkan verəcəkdir.

Bildirilmişdir ki, hazırda supaylayıcı hovuzdan 3 min metr uzunluğunda özüaxımlı boru xətti çəkilir. Bu günə qədər 810 metr məsafədə tikinti işləri başa çatdırılmışdır. Həmçinin ərazidə vaxtilə mövcud olmuş yeraltı suvarma şəbəkəsinin bərpa edilməsi də nəzərdə tutulmuşdur. Bu da şoranlaşmaya və su itkisinə yol verməmədən torpaq sahələrinin etibarlı su təminatına şərait yaradacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinin mühəndis-texniki tələblər nəzərə alınmaqla aparılması barədə tapşırıqlar vermişdir.

## Naxçıvan şəhərində "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün yeni kompleks inşa olunur



Kənd təsərrüfatının inkişafını şərtləndirən əsas amillərdən biri də emal müəssisələrinin yaradılmasıdır. Muxtar respublikada bu məsələ diqqət mərkəzində saxlanılır, yeni taxıl emalı müəssisələri və anbarlar tikilərək istifadəyə verilir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, hazırda Naxçıvan şəhərində "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün yeni kompleks inşa olunur.

İyunun 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kompleksin layihəsinə baxmış, aparılan tikinti işləri ilə maraqlanmışdır.

Bildirilmişdir ki, hazırda ərazidə texnikaların saxlanılması üçün qaraj və anbar binalarının inşası aparılır. Burada toxum, qüvvəli yem və xammal anbarları istifadəyə veriləcəkdir. Əvvəllər dəyirman kimi istifadə olunan bu ərazidə hər birinin tutumu 500 ton olan 48 bunker vardır. Təmir işlərindən sonra bunkerlər toxumun keyfiyyətlə və uzun müddətə saxlanılmasına imkan verəcəkdir.

Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, həm də digər kənd təsərrüfatı bitkiləri toxumunun satışı da həyata keçiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*24 iyun maşınqayırma sənayesi işçilərinin peşə bayramıdır*

# Maşınqayırma sənayesi iqtisadiyyatın aparıcı sahəsidir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 19 noyabr tarixli Sərəncamına əsasən, hər il iyunun 24-ü Azərbaycanda "Maşınqayırma sənayesi işçilərinin peşə bayramı" kimi qeyd olunur.***

Sənaye hər bir ölkədə iqtisadiyyatın aparıcı sahəsi hesab olunur. Azərbaycanda sənayenin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Hələ keçmiş Sovetlər Birliyi dövründə ulu öndərin rəhbərliyi ilə Azərbaycanda yeni sənaye kompleksləri yaradılmış, yanacaq və energetika, kimya, maşınqayırma, metallurgiya, yeyinti, yüngül və digər sahələri özündə birləşdirən sənaye sektorunun dinamik inkişafı təmin edilmişdir. Həmin dövrdə Azərbaycanda, ilk növbədə, neft maşınqayırması kimi təşəkkül tapmış maşınqayırma sənayesi əsrin 70-80-ci illərində əsaslı inkişaf dövrünə qədəm qoymuşdur. Nəticədə, Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrilmişdir.

Maşınqayırma sənayesi bir-biri ilə qarşılıqlı əlaqədə olan energetika, elektrotexnika, radioelektronika, cihazqayırma, dəzgahqayırma, nəqliyyat, kənd təsərrüfatı və digər maşınqayırma sahələrini əhatə edir. Maşınqayırma ağır sənaye kompleksi olaraq əmək alətləri, istehlak predmetləri və müdafiə xarakterli məhsullar istehsal edən bir sahədir. Bu sahə, ümumilikdə, iqtisadiyyatın texniki təminat bazası olaraq, istehsalatda əmək məhsuldarlığını yüksəltməklə insanların maddi rifahının yaxşılaşmasına xidmət edir.

Bu gün ölkəmizdə maşınqayırma sənayesi müəssisələri iqtisadiyyatın milli gəlir baxımından mühüm sahəsi hesab olunub, ümumi sənaye strukturunda xüsusi çəkiyə malikdir. Müstəqillik illərində müəssisələrin özəlləşdirilməsi, səhmdar cəmiyyətlərə çevrilməsi, eləcə də mühüm əhəmiyyətə malik müəssisələrin maddi-texniki bazasının yenidən qurulması, yeni istehsal sahələrinin yaradılması maşınqayırmanın tamamilə yeniləşməsinə, bazara uyğun fəaliyyət göstərməsinə səbəb olmuşdur.





İnkişafını bazar iqtisadiyyatının tələblərinə uyğun quran Azərbaycanda sənayenin bütün sektorlarının, o cümlədən maşınqayırmanın inkişafı məqsədilə xüsusi proqramlar qəbul olunaraq icra edilir. Son illər bu sahəyə dövlət dəstəyi gücləndirilmişdir. Maşınqayırma sənayesinin inkişaf etdirilməsi, rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi, maşınqayırma sənayesi məhsullarına olan daxili tələbatın ödənilməsinə nail olunması, maşınqayırma sənayesinin inkişafı əsasında digər istehsal və xidmət sahələrinin inkişafı üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl tədbirlər görülür.

Son illər maşınqayırma müəssisələrinin yeni texnologiyalar əsasında təchizatı onların istehsal güclərinin artmasına səbəb olmuşdur. Hazırda Azərbaycan maşınqayırma sənayesində rəqabətqabiliyyətli məhsul istehsalına malikdir. Bu sırada avtomobillərin istehsalı xüsusi əhəmiyyət daşıyır. Ölkəmizdə artıq bir neçə ildir ki, həm yük, həm də minik maşınlarının istehsalı həyata keçirilir. Ölkəmizdə gedən güclü sənayeləşmə prosesindən heç də geri qalmayan Naxçıvan Muxtar Respublikasında da yeni texnologiyaların tətbiqinə əsaslanan istehsal sahələrinin, xüsusilə avtomobillərin buraxılışı diqqət mərkəzindədir. 2010-cu ildə Naxçıvan Avtomobil Zavodunun istifadəyə verilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Bu gün Naxçıvanda "Lifan" avtomobillərinin istehsalı maşınqayırma sənayesinin inkişafını sürətləndirən əsas amillərdəndir. Öz texniki göstəricilərinə və dizaynına görə qonşu ölkələrin istehsal etdiyi maşınlardan geri qalmayan bu avtomobillər daxili bazarda xüsusi yer tutur. Gələcəkdə "Lifan"ın yeni versiyalarının buraxılışı da nəzərdə tutulur ki, bu da avtomobil sənayesində yeni keyfiyyət dəyişikliklərinin yaranmasına imkan verəcəkdir. İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə 2012-ci ilin yanvarından etibarən "NAZ-Lifan X-60" modelinin kütləvi istehsalına başlanılıb. Həmçinin müəssisədə təcrübə-sınaq məqsədilə 2012-ci ilin sonundan 6 nəfərlik mikroavtobus və 800 kiloqram yükgötürən avtomobillərin hissələrinin istehsalı həyata keçirilir.

Hazırda ölkəmizdə avtomobil bazarı daha çox xarici ölkələrin istehsal məhsulları hesabına təmin olunsa da, yaxın illərdə yerli və müştərək müəssisələrin istehsal fəaliyyətinin güclənməsi nəticəsində milli brendlər daxili bazarda xüsusi yer tutmağa başlamışdır. Dünyanın ən nəhəng maşınqayırma müəssisələrinin Azərbaycanda öz istehsal sahələrini yaratmaq niyyətlərinin gerçəkləşməsi isə bu sahənin yüksək inkişafını təmin edəcəkdir. Onu da nəzərə almaq lazımdır ki, maşınqayırma sənayesinin davamlı şəkildə inkişafı minlərlə yeni iş yerlərinin açılması deməkdir. Bu isə insanların məşğulluğunun təmin olunması, sosial vəziyyətlərinin yaxşılaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Peşə bayramlarını qeyd edən maşınqayırma sənayesi işçiləri bundan sonra da istehsal çeşidlərinin və həcminin artırılması, ixrac potensialının genişləndirilməsi məqsədilə daha səylə çalışacaqlar.

**"Şərq qapısı"**

# Nazirlik, komitə və digər təşkilatların əməkdaşları Naxçıvan şəhərindəki muzeylərdə olublar



Muxtar respublikamızda fəaliyyət göstərən nazirlik, komitə və digər təşkilatların əməkdaşları tez-tez Naxçıvan şəhərindəki muzeylərdə olur, bu mədəniyyət müəssisələrində onlara mühafizə olunan eksponatlar barədə ətraflı məlumatlar verilir. İyun ayının 21-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Kənd Təsərrüfatı nazirliklərinin əməkdaşları Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Məlumat verilib ki, muzeydə ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərinə həsr olunmuş stendlər qoyulub, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid (1991-1993) şəxsi sənəd və materiallar, məktub, qərar və sərəncamlar, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanılıb. Ümumilikdə, muzeydə 4255 eksponat var.

Nazirliklərin əməkdaşları muzeydə saxlanılan eksponatlarla yaxından tanış olublar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollektivi isə Naxçıvan Dövlət Xalça Muzeyini ziyarət edib. Hazırda Naxçıvan Dövlət Xalça Muzeyində nümayiş etdirilən nümunələrin sayı 300-ü keçib. Xovsuz və xovlu xalça növləri, habelə məfrəş, xurcun, torba kimi məmulatların ən gözəl nümunələri muzeyi bəzəyir. İndi bu mədəniyyət ocağında Naxçıvan qrupuna aid 109 xalça nümayiş etdirilir.

Dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində xalqımız tarixin bütün dövrlərində zəngin mədəniyyət və memarlıq nümunələri yaradıb. Tarixi araşdırmalar göstərir ki, bu memarlıq abidələri arasında özünəməxsus yeri olan Naxçıvanqala yalnız müdafiə məqsədi daşımayıb. Bu qala eyni zamanda burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilib. İlk orta əsrlərə aid mənbələrdə tarixçilər Naxçıvan şəhərini ətrafı möhkəmləndirilmiş qala kimi xarakterizə edilir. Naxçıvan şəhərinin 1827-ci ilə aid planında Naxçıvanqalanın sxematik təsviri də verilib. Plana əsasən, qala iki hissədən – kiçik qala, yəni Narınqala və Böyük qaladan ibarət olub. Xalqımız Narınqalanın qalıqlarını günümüzədək qoruyub saxlaya bilib. Daş qatışığı olan möhrədən tikilən qala divarları yarımdairəvi bürclərlə möhkəmləndirilib. Yaşayış binaları, əsasən, qala divarları boyunca salınmış, onların damından döyüşçülərin və qala keşikçilərinin hərəkət etməsi üçün istifadə olunub. Ötən əsrin ortalarında Naxçıvanqalada aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar – saxsı qablar və Tunc dövründə duz mədənlərində əmək aləti kimi istifadə olunmuş daş gürzlər aşkar edilib. Bu hadisə sənətkarlığın inkişaf etdiyi və şəhər mədəniyyətinin formalaşdığı tarixi-etnoqrafik ərazilərdən biri kimi Naxçıvanqalanın əhəmiyyətini daha da artırır.

Bu məlumatlar həmin gün "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olan Naxçıvan Muxtar Respublikası Təhsil, Mədəniyyət və Turizm nazirliklərinin əməkdaşlarına verilib. Bildirilib ki, 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılaraq tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə ötən il burada "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması barədə qərar qəbul edilib.

Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları və Səhiyyə nazirliklərinin əməkdaşları Açıq Səma Altında Muzeydə, Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi isə Naxçıvan Dövlət Tarix Muzeyində olublar.

**Muxtar MƏMMƏDOV**

# Şahbuz rayonunda sığorta fəaliyyəti müzakirə edilib

İyunun 23-də Şahbuz Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr barədə yığıncaq keçirilmişdir. Yığıncağı Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açaraq rayonda sığorta fəaliyyəti sahəsində görülmüş işlərdən danışmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi istiqamətində görülmüş işlərdən danışmış, sığortanın kütləviliyinin əhəmiyyətini qeyd etmişdir. O, muxtar respublikada müxtəlif bədbəxt hadisələrdən zərər çəkmiş ayrı-ayrı vətəndaşlara dəymiş zərərlərin ödənilməsi üzrə faktlar göstərərək sığortanın faydalarını bir daha diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, ötən müddətdə Şahbuz rayonunda da sığorta fəaliyyəti istiqamətində müəyyən işlər görülmüşdür. Belə ki, ötən müddət ərzində Şahbuz rayonunda bağlanılmış sığorta müqavilələrinin sayı artmışdır. Bildirilmişdir ki, Şahbuz rayonunda sığorta sahəsində görülmüş işlərlə yanaşı, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və daşınmaz əmlakın icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır.



Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Əli CABBAROV**

# Silahlı qüvvələrin yaradılmasının növbəti ildönümü münasibətilə bayram tədbiri keçirilib



Dünən Azərbaycan Silahlı Qüvvələrinin Əlahiddə Ümumqoşun Ordusunun Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yerləşən "N" hərbi hissəsində silahlı qüvvələrin yaradılmasının növbəti ildönümü münasibətilə bayram tədbiri keçirilmişdir. Muxtar respublikanın elm, təhsil və mədəniyyət müəssisələri nümayəndələrinin iştirak etdiyi tədbiri Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov açaraq bayram münasibətilə əsgər və zabitləri təbrik etmişdir.

Ölkəmizdə, həmçinin muxtar respublikamızda ordu quruculuğundan danışan polkovnik-leytenant Mirqiyas Rüstəmov bildirmişdir ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. 1991-ci ildə öz müstəqilliyini bərpa edən Azərbaycan mürəkkəb ictimai-siyasi vəziyyətlə üzləşmişdi. Müstəqilliyin ilk illərində ordu quruculuğunda ciddi qüsurlara yol verilmiş, Azərbaycan Ordusunun yaradılması, sadəcə, kağız üzərində qalmışdı. 1993-cü il iyun ayının 15-də ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində mühüm addımlar atılmışdır. Vurğulanmışdır ki, 1994-cü il mayın 12-də atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda Milli Ordunun gücləndirilməsi prosesi xeyli sürətləndirilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində silahlı qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırılmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılmışdır.

Vurğulanmışdır ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun layiqli davamçısı, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının 18 dekabr 2013-cü il tarixli Fərmanı ilə Müdafiə Nazirliyi haqqında Əsasnamə təsdiq edilmiş və bu Əsasnaməyə uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, silahlı qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılmışdır. Orduya göstərilən böyük diqqətin nəticəsidir ki, indi muxtar respublikamızın təhlükəsizliyi yüksək səviyyədə təmin olunmuşdur.

Tədbirdə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, institutun müəllimi, filologiya üzrə fəlsəfə doktoru Həsənəli Eyvazlı, AMEA Naxçıvan Bölməsinin əməkdaşları – tarix üzrə fəlsəfə doktoru Asəf Orucov və filologiya üzrə fəlsəfə doktoru Əkrəm Hüseynzadə çıxış edərək xalq-ordu birliyindən danışmış, Vətən qarşısında müqəddəs borclarını yerinə yetirən zabit və əsgərlərimizi təbrik etmişlər.

Tədbirin bədii hissəsində əsgərlərimiz Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin ifalarını dinləmiş, onlarla birgə rəqs etmişlər. Yaradıcı kollektivlərin çıxışları alqışlarla qarşılanmışdır.

**Səbuhi HƏSƏNOV**

*Türkiyənin "ortakses.com" saytında rəssam, yazıçı Hülya Sezginin Naxçıvan haqqında yazdığı "Güllər içində gözəl Naxçıvan" məqaləsinin II hissəsi yayımlanmışdır. Həmin məqalənin oxucularımız üçün maraqlı olacağını nəzərə alaraq qəzetimizin bugünkü nömrəsində dərc edirik.*

# Güllər içində gözəl Naxçıvan

*Gəzdim gözəl Naxçıvanı…*

*II məqalə*

Bundan əvvəlki məqaləmdə qeyd etdiyim kimi, Naxçıvan Rəssamlar Birliyinin təşkil etdiyi "Naxçıvan – bəşəriyyətin beşiyi" II Beynəlxalq Rəsm Festivalına dəvət edilmişdim. Həmin festivalda iştirak etmək üçün səfər etdiyim gözəl Naxçıvan haqqında təəssüratlarımı sizinlə bölüşməyi davam etdirirəm…

Sənətə dair belə möhtəşəm tədbirlərdə müxtəlif ölkələrdən, müxtəlif mədəniyyətin təmsilçiləri olan dostlarla tanış oluram. Onlardan bəziləri ilə dostluğumuz bu gün də davam edir. Qarşılıqlı olaraq bir-birimizə qonaq gedirik. Azərbaycanlı Nəvai Mətin ilə olduğu kimi. Nəvai artıq mənim bir qardaşım kimidir. Həmin tədbirdə tanış olduğum Eldar Zeynalov da artıq belə olacaq.

Eldar naxçıvanlıdır, amma İtaliyada yaşayır. Professordur. Elm sahəsində yüksək səviyyəyə çatsa da, bu gün yenə oxumaqdan, elm öyrənməkdən doymaq bilmir. Belə ki, həm memardır, həm tibb elmləri doktorudur, həm də çox yaxşı rəssamdır. Üç universitetin məzunudur. Tam 25 dil bilir. Eyni zamanda rəqs müəllimi və idmançıdır. Amma bülbülü qızıl qəfəsə qoyublar, "Ah, Vətənim!" – deyib. Eldar da belədir. Hər kəs tərəfindən müqəddəs ziyarətgah kimi qəbul edilən yeddi kimsənənin qeybə çəkildiyi Əshabi-Kəhf ziyarətgahını ziyarət edərkən duasını sona çatdırdıqdan sonra "Ah, qürbət! Ah, qürbət!" – deyərək göz yaşlarına hakim ola bilmədi. Ürəyim sızıldadı…

Televiziyaların birində rejissor işləyən gənc rəssam Vüqar Mehdiyev də dostlar, qardaşlar siyahısına əlavə etdiyim insanlardandır. Oturacaqda oturub dincəlirdik. Dağın yüksəkliyinə çıxan dostlarımız var idi. Vüqar "Oradakı dostlarımız da dağdan düşsünlər gedərik", – dedi. Mən dərhal "Niyə düşsünlər? Allah qorusun!" – deyərək bir az sərt cavab verdim. Sonra anladım ki, azərbaycanlılar "enməyə" "düşmək" deyirlər. Bizdə isə "düşmək" sözü "yıxılmaq", "qəza etmək" mənasına gəlir…

Saeed Ayyami iranlıdır. Naxçıvanın sərhədində olan Araz çayının yaxınlığındakı şəhərdən gəlib. Türk dilini bilir. Otuz yaşındadır və şam yeməyimizdə çıxış edərkən "Burada yaxşı bir böyük bacı tapdım" deməsi məni duyğulandırdı…

Sıra gəlmişdi Duzdağı gəzməyə. Naxçıvan şəhərindən 14 kilometr uzaqlıqda yerləşən Duzdağın mağarasında astma, bronxit və nəfəs darlığı olan xəstələrə şəfa verən maraqlı bir xəstəxana var. Deyilənə görə, mağarada yayda da, qışda da istilik 18-20 dərəcə olur. Xəstələr gecəni burada qalır, təbii yolla müalicə alırlar. Bu müalicənin müsbət nəticələr verməsi hər kəs tərəfindən qəbul edilir. Bizdə də Çankırı duz mağarasında buna bənzər belə bir sağlamlıq mərkəzi var.

Azərbaycanlıların bəzi sözləri mənim çox xoşuma gəlir. Budur, həmin sözlərdən biri də diqqətimi cəlb etdi. Həmşirənin otağının qapısında belə yazılıb: "Tibb bacısı"…

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yanında Nuh Peyğəmbərin türbəsi var. Türbənin tam arxasında uzaqda Haçadağ və Gəmiqaya görünür. Naxçıvanlılar belə hesab edirlər ki, Nuh tufanı bu bölgədə baş verib. Naxçıvandakı yer adlarının Nuh Peyğəmbər tərəfindən qoyulduğu, hətta "Naxçıvan" sözünün "Nuh çıxan" mənasına gəldiyini də deyirlər…

Naxçıvan Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva gənc və gözəl bir xanımdır. Həm deputat, həm yaxşı bir ana, həm fədakar könüllü, həm də çalışqandır. Bu festivalın adına layiq bir şəkildə keçirilməsi üçün çox çalışıb.

Üçüncü gün hamımız muzeydə öz yerimizi aldıq və açıq havada rəsm çəkməyə başladıq. Çox gözəl rəsmlər ortaya çıxdı. Yeri gəlmişkən, azərbaycanlılar "rəsm yapmaq" demirlər, "rəsm çəkmək" deyirlər. Bu da xoşuma gələn sözlərdən biridir.

Digər bir sevdiyim və heyran qaldığım həmcinsim də vardı ki, onunla adaşıq. Adı Hülya Akıncıdır. Hülya xanım Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Əli Rza Akıncının həyat yoldaşıdır. Bahar təravətli gənc bir xanımdır. Sənətə bağlıdır. Boş dayanmır, keramika ilə rəsm yaradır. O, bizimlə birlikdə Naxçıvanın tarixini canlandıran çox gözəl bir rəsm çəkdi. Çox şirin əkiz iki oğlu var. Naxçıvanlılar Baş konsula və onun həyat yoldaşına rəğbət bəsləyirlər. Onlar da yerli insanlarla qaynayıb-qarışıblar.

Səfərimizin sonuncu günü axşam çay içməyə dəvət etdilər. Söhbətimiz xoş keçdi. Ülviyyə xanım "Hülya xanım ilə birlikdə "Qadınlardan nağıllar" adlı keramika-rəsm sərgisi keçirdik. Türkiyəli və naxçıvanlı rəssam qadınlar da sərgidə iştirak edirdilər", – deyərək səmimi şəraitdə birgə fəaliyyət göstərdiklərindən danışdı...

Sonuncu gün Azərbaycanın ən tanınmış rəssamlarından biri olan və otuz yaşında vəfat edən Bəhruz Kəngərlinin məzarını ziyarət etdik və muzey binasını gəzdik. Həmin gün rəssamlarımızdan ibarət sərginin açılışı ilə birlikdə plaketlərimiz və hədiyyələrimiz də bizə təqdim olundu. Sonra Naxçıvan Dövlət Universiteti tələbələrinin rəsmlərindən ibarət sərgiyə baxdıq. Çox gözəl rəsmlər vardı. Bir daha deyirəm ki, naxçıvanlılar sənətdə bizdən çox irəlidədirlər...

Nəvai ilə yaxın dostu Mahir müəllim məni avtovağzala gətirdilər. Sağ olsunlar. Avtobusa mindirdilər. Avtobus hərəkətə gələndə gözəl xatirələri, dostluğumdakı yeni insanları xatırlayarkən gözlərim yaşardı, dostlara əl elədim...

Yol kənarları ağaclarla dolu idi, ancaq ondan o tərəfə baxanda intəhasız düzənlik görünürdü. Nəyə görə yol kənarlarından başqa yerlərdə ağac olmadığı barədə sualıma belə cavab verdilər ki, müstəqilliyin ilk illərində ermənilər Naxçıvana gələn işıq və qaz xətlərini kəsdikləri üçün əhali qış aylarında isinmək üçün ağacları kəsərək ondan istifadə etmək məcburiyyətində qalıb...

Bu gün isə yüzlərlə insan, könüllülər Naxçıvan şəhərindən kilometrlərcə uzaqda ağac əkir, yaşıllıqları daha da genişləndirmək üçün var gücləri ilə əsirgəmir. Məni təəccübləndirən digər bir məqam isə həmin ağacları damcı üsulu ilə suvarmaq üçün su xətlərinin çəkilməsidir. Görürəm ki, bizdə bəzi bələdiyyələr tingi əkdikdən sonra belə hesab edirlər ki, bununla iş qurtarır. Həmin tinglərə bütün yay boyu bir qab su da vermirlər və nəticədə, ağaclar quruyur...

Mən Naxçıvanı qurtuluş savaşından çıxmış Türkiyə Cümhuriyyətinə oxşatdım. Həmin illərdə bizdə olduğu kimi, burada da əhali yeniliklərə imza atmaq, irəliyə doğru addımlamaq, yüksəlişi davam etdirmək üçün sıx şəkildə birləşərək canla-başla çalışır...

*Təşkilatçılıq yüksək səviyyədə idi...*

Güllərə qərq olan gözəl Naxçıvanı gəzdim. Gözəl dostlar, qardaşlar qazandım. Qısaca, 5 günüm çox gözəl keçdi. Gözəl xatirələrlə ayrıldım.

Festivalın təşkilinə böyük dəstək verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov başda olmaqla əməyi keçən hər kəsə təşəkkürlərimi, sevgi və salamlarımı çatdırıram.

**Hülya SEZGİN**

---

Abbasqulu ağa Bakıxanov – 220

# Abbasqulu ağa Bakıxanovun üç məşhur əsəri haqqında

*Milli ədəbiyyatımızda maarifçilik ideyalarının yaranmasında müstəsna xidmətləri olmuş Abbasqulu ağa Bakıxanov elm tariximizdə də mühüm rolu olan böyük alim kimi tanınmışdır. Müəllifi olduğu "Qanuni-Qüdsi", "Əsrarül-məlakut", "Təhzibül-əxlaq", "Eynül-mizan", "Gülüstani-İrəm" kimi əsərlər ona böyük şöhrət qazandırmışdır. Abbasqulu ağa Bakıxanovun dil, coğrafiya, tarix, astronomiya, məntiq, psixologiya və sair elmlərə aid əsərləri onun hərcəhətli bir alim olduğunu göstərməkdədir.*



Abbasqulu ağa Bakıxanovun yuxarıda sadalanan elm sahələrindən coğrafiya elminə aid iki elmi əsəri var. Bunlardan biri "Kəşfül-qəraib", digəri isə "Ümumi coğrafiya"dır.

Yarımçıq qalan **"Ümumi coğrafiya"** əsəri haqqında müəllif özü belə məlumat verir: "Bu əsər farsca olub, dünyanın riyazi, təbii və siyasi əhvalından, ünsürlərin xassələrindən, məvalidin məhsulatından, iqlimlərin hüdudunu təyin etmək və Yer kürəsi əhalisinin siniflərini müəyyən etməkdən və hər bir ölkənin yaşayış tərzindən bəhs edir". Təkcə bu əsər haqqında müəllifin dedikləri sübut edir ki, A.Bakıxanov nə qədər geniş dünyagörüşə və ətraflı müqayisələr aparmaq qabiliyyətinə malik olmuşdur. Bu əsər haqqında danışarkən ona görə "bu əsər haqqında müəllifin dedikləri" ifadəsini işlətdik ki, A.Bakıxanovun həmin qiymətli əsəri əlimizdə yoxdur. "Gülüstani-İrəm"də verilən məlumatdan aydın olur ki, alim bu əsərində dünyanın təbii və siyasi əhvalından, cəmiyyət quruluşundan, qitə və sərhədlərdən, maddələrin tərkib və vəziyyətindən bəhs etmişdir.

Elmi və tarixi əsərlər müəllifi olan A.Bakıxanov Azərbaycan ədəbiyyatında pedaqoji məsələlərlə bağlı yazılmış əsər müəllifi kimi də tanınmışdır. Onun uşaqların bilik, savad qazanmasının metod və üsullarından bəhs edən elmi-pedaqoji əsərləri Azərbaycan pedaqoji fikir tarixinin ilk qaranquşlarındandır. Abbasqulu ağa Bakıxanov pedaqoji məsələlərlə bir alim kimi məşğul olmuş, uşaqların və gənclərin tərbiyəsi ilə əlaqədar olan iki əsər yazmışdır ki, bunlardan biri "Təhzibül-əxlaq", digəri isə "Kitabi-nəsihət" adlanır.

**"Təhzibül-əxlaq"** əsəri Abbasqulu ağa Bakıxanovun əsas əxlaqi-fəlsəfi əsəri hesab olunur. Bu əsərdə o, cəmiyyət haqqındakı fikirlərini bir sistem şəklində şərh edərək gənclər arasında nəcib əxlaq normalarını, onun gözəl cəhətlərini təbliğ edir. Əsər müqəddimə və xülasədən əlavə, 12 fəsildən ibarətdir.

Müqəddimədə ənənəvi olaraq, kitabın yazılma səbəbləri və hikmət qanunları, xülasədə isə bilik əldə etməyin sirləri haqqında danışılır. Fəsillərin adlarından aydın olur ki, A.Bakıxanov bu əsəri yazarkən klassik Şərq ədəbiyyatında bu səpgidə yazılmış bir çox kitabları araşdırmışdır. O, əsərdə bir əxlaq müəllimi kimi faydalı məsləhət və nəsihətləri ilə oxucunu düz yola dəvət edir, onu əməyə rəğbət bəsləməyə, dostluğa sədaqət göstərməyə, böyüklərə hörmət etməyə, təvazökar və ədalətli olmağa çağırır. Müəllif göstərir ki, xüsusilə ədalət tərəzisi olmayan insanın öyrəndiyi elm və bilik fayda verməz. A. Bakıxanov əsərində, Şərq ədəbiyyatı nümunələrindən fərqli olaraq, ümumbəşəri əxlaq nümunələrini təbliğ edir, bu əxlaq nümunələrini cəmiyyətləri birləşdirən dəyər kimi təqdim edir.

Pedaqogika və psixologiyaya aid elmi və nəzəri məsələləri əhatə edən "Təhzibül-əxlaq" əsərinin əsas məqsədi gəncləri pis əməllərdən çəkindirmək, onlarda nəcib və gözəl əxlaqi normalar tərbiyələndirməkdir. Şəxsiyyətin bütövlüyü, vicdan təmizliyi, doğruluq, ədalət, mərdlik, yoxsul və məzlumlara hamilik, insanlarla yaxşı rəftar, dünya malına tamah salmamaq, şöhrətpərəstlikdən çəkinmək, təvazökarlıq, zəhməti sevmək, elm və maarifin bayrağını hər şeydən uca tutmaq, vətənə və xalqa məhəbbət kimi yüksək insani keyfiyyətlər bu əsərdə irəli sürülən əsas əxlaqi məsələlərdəndir.

Bu əsərdə Abbasqulu ağa Bakıxanov Azərbaycan elmində ilk dəfə olaraq nəzəriyyə ilə təcrübənin qarşılıqlı əlaqəsini təyin etməyə çalışır. Elmlə əməlin bir-birindən asılı olduğunu izah edən alim, nəticədə, elmə üstünlük verir və göstərir ki, elmi əsası olmayan praktika şikəstdir.

Əsərin kainat və ilahiyyat məsələlərinin qısa fəlsəfi şərhindən ibarət olan "Xatimə" adlanan fəslində müəllif kainatın maddi bir varlıqdan ibarət olduğunu, əşya və maddənin haldan-hala keçərək dəyişdiyini, varlıqda yoxluğun olmadığını bildirir. Burada A.Bakıxanovun qədim yunan materialist-filosofları Demokrit və Empedoklun əsərləri ilə tanış olduğu aydın hiss olunmaqdadır. Lakin bu materialist dünyagörüşü onda müntəzəm və ardıcıl surətdə axıra qədər davam etmir; idealist dünyagörüşü ona qalib gəlir.

"Təhzibül-əxlaq"dan sonra Abbasqulu ağa Bakıxanovun ikinci pedaqoji əsəri "Kitabi-nəsihət" və ya "Nəsihətnamə" adlanır. "Kitabi-nəsihət"də 102 nəsihət vardır. Əsər müəllifin kiçik müqəddiməsindən sonra dini nəsihətlərlə başlanır. Dini nəsihətlərdən sonra dövlət başçısına, ata-anaya, böyüklərə itaət və ehtiramın vacibliyinə aid, daha sonra isə həyat və məişət məsələləri ilə əlaqədar olan əxlaqi nəsihətlər verilir. Əxlaqi nəsihətlərin əksəriyyəti "Təhzibül-əxlaq"dakı əxlaqi nəzəriyyə ilə sıx bağlıdır.

Uşaqların əxlaqını yaxşılaşdıran və onlarda nəcib xasiyyətlərin yaranmasını təmin edən belə nəsihətlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır; səbəbsə əsərdə ifadə olunan nəsihətamiz fikirlərin ümumbəşəri səciyyə daşımasıdır.

**"Gülüstani-İrəm".** Azərbaycan və Dağıstan xalqlarının tarixindən bəhs edən "Gülüstani-İrəm" əsəri Abbasqulu ağa Bakıxanovun ən böyük elmi əsəridir. Əsər ilk məxəzlər əsasında, müəllifin uzun illər bu sahədə apardığı ciddi tədqiqatlar nəticəsində ərsəyə gəlmişdir. Müəllif özü dövlət başçısına və müasirlərinə yazdığı müraciətnamələrində əsər haqqında "mənim uzun illər zəhmətimin məhsuludur", – deyə bəhs etmişdir. Müəllif bu əsərini yazarkən bir neçə dəfə arxeoloji tədqiqat işləri aparmış, tarixi abidələrdən, köhnə binaların qalıqlarından, sikkələrdən, padşahların və xanların fərmanlarından, milli əfsanələrdən, dini kitablardan, "Avesta"dan, nağıl və rəvayətlərdən, səyyahların verdiyi xəbərlərdən, çoxlu Şərq mənbələrindən, qədim yunan, Roma və rus alimlərinin əsərlərindən istifadə etmişdir.

Bu əsəri də Abbasqulu ağa Bakıxanov müqəddimə ilə başlayır. Müəllif yığcam, lakin dolğun məzmunlu bu müqəddimədə tarix elminə qısa tərif verir, onu cəmiyyət və xalq üçün ən faydalı elmlərdən sayır. Tarixə müasir elmin tələbləri nöqteyi-nəzəri ilə yanaşan müəllif bəşəriyyətin keçmiş həyatını təcrübə adlandırır, hal-hazırdakı və gələcək həyatı yaxşı qurmaq üçün bu təcrübədən istifadə etməyi lazım bilir.

"Gülüstani-İrəm"in müqəddiməsində Azərbaycanın və Dağıstanın qısa coğrafi təsviri, qədim yunan, ərəb və rus mənbələrinə istinad edilərək bu ölkələrin xalqlarının mənşəyi, dili və dinləri haqqında maraqlı məlumatlar verilir.

Əsərin birinci fəslində "Tarixi-Təbəri", "Tarixi-güzidə", "Nizamüt-təvarix", "Kitabi-məsalikül-məmalik", "Xəritətül-əcaib" kimi qədim Şərq mənbələrinə istinadən Nuh Peyğəmbər və dünya tufanı, onun övladları, Yasəf, Ham və Sam nəsilləri, Yəcuc və Məcuc, skiflər, massagetlər, xəzərlər, sasani hökmdarlarının Azərbaycandakı hakimiyyəti haqqında elmi, bəzən də əfsanəvi məlumatlar verilir.

İkinci fəsli Azərbaycan və Dağıstan ölkələrinin ərəb işğalçıları tərəfindən istila olunması, ümumiyyətlə, ərəblərin bu ölkələrdəki hakimiyyəti dövrünə həsr olunmuşdur. Həmin fəsildə ərəb xəlifələrinin buraya göndərdiyi hakimlər, ərəblərin xəzərlərlə döyüşləri, xarici işğalçıların istilasına qarşı Babəkin mübarizəsi, onun edam edilməsi haqqında məlumatlar vardır.

Üçüncü fəsil hülakülərin və teymurilərin hakimiyyəti dövrünə işıq tutur və burada Şirvanşahların səltənət və nəsibinə dair tarixi məlumatlar əks etdirilir. Bu fəsildə Ağqoyunlularla Qaraqoyunluların mənşəyi və məşhur alim Xacə Nəsirəddin Tusi haqqında da məlumatlar vardır.

Əsərin ən böyük hissəsini təşkil edən dördüncü fəsil Səfəvi padşahlarının və onların süqutundan sonra İran taxtına oturan Nadir Əfşarın hakimiyyəti tarixinə həsr olunur.

"Fütuhati-Əmini", "Tarixi-aləmarayi-Abbasi", Qolikovun "Böyük Pyotrun fəaliyyəti", Ustryalovun "I Pyotrun səltənət tarixi" və digər rus, fars və osmanlı mənbələrindən istifadə edilərək qələmə alınan bu fəsildə I Şah İsmayıl, I Şah Abbas və Nadir şahın hərbi səfərləri, Rusiya və Türkiyə qoşunlarının Dağıstan və Azərbaycan ölkələrinə hücumları, Sultan Səlim Yavuzun qoşunları ilə Şah İsmayılın qoşunları arasında Təbriz yaxınlığında gedən məşhur Çaldıran döyüşü, bəhs olunan dövrdə yerli əmir və hakimlərin fəaliyyəti haqqında zəngin məlumatlar toplanılmışdır. "Gülüstani-İrəm"in beşinci, son fəsli Nadir şahın ölümündən (1747) 1813-cü ildə Rusiya və İran dövlətləri arasında bağlanan "Gülüstan" müqaviləsinə qədər 60 ildən artıq bir dövrü əhatə edir.

Bu fəsil "Gülüstani-İrəm"in, belə demək mümkünsə, ən orijinal hissəsidir. Xanlıqlar dövrünün işıqlandırılması nöqteyi-nəzərindən beşinci fəsil elmi mənbə baxımından böyük əhəmiyyət kəsb edir. "Gülüstani-İrəm" "Nəticə" adlı sonluqla bitir. Lakin bu "Nəticə" əsərdə verilən məlumatın yekunu və ya xülasəsindən ibarət deyildir. Bu, əsərə, sadəcə, bir əlavədir. Burada Azərbaycanın məşhur alimi, yazıçı və şairləri haqqında qısa məlumat verilir.

Azərbaycan və rus dillərində nəşr edilmiş bu əsər sonrakı dövrdə yaşayan tarixçilərimizin stolüstü kitablarından olub, əsasən, İslamın meydana gəlməsindən tutmuş 1813-cü ildə Rusiya ilə İran arasında bağlanan müqaviləyə qədərki dövrdə xalqımızın tarixini tədqiq və təhlil edən dəyərli mənbələrdən biridir.

**Səyyar MƏMMƏDOV**

*Cəmiyyət inkişaf etdikcə insanların ehtiyacları da dəyişir. Bu ehtiyaclar isə gündən-günə yeni istehlakçı trendlərinin yaranmasına gətirib çıxarır. Bu gün dünyanın bütün inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da sağlamlıq həyat tərzinə çevrilir. Bunun bir çox səbəbləri var. Əsas səbəb isə dünya alimlərinin də üzərində təkidlə durduğu müasir dünyamızın daha çox mobilləşməyə, texnoloji yeniliklərə doğru getməsidir. Əlbəttə, yenilikləri qəbul etməmək və yaxud bunun tətbiqinin qarşısını almaq kimi fikirlərdən uzağıq.*

## Düzgün qidalanma sağlam həyatın əsas prinsipidir

Ancaq bəşəriyyətin incisi sayılan insanların sağlam həyat tərzi keçirməsi bu gün qarşımızda əsas məqsəd kimi dayanır. Doğrudur, bu gün ölkəmizdə insanların sağlam yaşaması dövlətimizin əsas vəzifələrindən biridir və bu istiqamətdə çoxsaylı addımlar atılır. Ancaq burada əsas məsələlərdən biri, hətta birincisi, hər bir vətəndaşımızın fərdi olaraq sağlam həyat tərzinə baxış və düşüncələri, bu sahədə əlavə biliklərə yiyələnməsidir. Hamı sağlam olmaq istəyir, hamı uzun ömür sürmək arzusundadır. Amma bunu hər kəs bacarmır. Bilirsiniz niyə? Uca Tanrının yaratdığı insan nə qədər ana təbiətdən uzaq düşürsə, bu təbiətin ona verdiyi nemətləri "gözəlləşdirib" qəbul edirsə və özü-özünün həkimi olmağı bacarmırsa, deməli, yuxarıda söylədiklərimizi də hər zaman elə arzu olaraq səsləndirəcəyik. Dünyada xoşbəxt xalqlar onlar sayılır ki, həmin xalqların vətəndaşları sağlamdırlar. Sağlam gəncliyi olmayan bir ölkənin gələcəyi də qaranlıq olar. Xalqımız hər zaman mənəviyyatı, qəhrəmanlığı, qonaqpərvərliyi ilə tanındığı kimi, ölkəmiz də uzunömürlülər diyarı kimi tanınıb. Biz həmişə ölkəmizin müxtəlif iqlim qurşaqları, təbiəti, suyu, torpağının bərəkəti ilə fəxr etmişik. Çalışmalıyıq ki, bu nemətlərdən düzgün yararlana biləк. İndi bəziləri düşünə bilər ki, bu fikirləri çox eşitmişik, bunun sağlamlıq və uzunömürlülüklə əlaqəsini bu və ya digər formada bilirik, lakin sonda ölümlə nəticələnən xəstəliklərin qarşısında bunun faydası yoxdur. Çünki intellekt və texnologiya əsri sayılan iyirmi birinci əsr hələ də bir çox xəstəliklərin əlində acizdir. Məhz insanları da çaşdıran budur! Necə olur ki, intellektli insan minlərlə kilometr uzaqlıqda yerləşən qalaktikaları izləyə bilir, bir neçə saniyə ərzində "fəxr etdiyi" silahla az qala bir ölkəni məhv edə bilir, ancaq özünə yaxından da yaxın – daxilində olan xəstəliyin əlində aciz qalır? Cavab isə çox sadədir: insanlar onlar üçün "proqramlaşdırılan" bütün vasitələri öz əlləri ilə məhv edirlər. Bu "proqramlaşdırma"da isə təbiətin bizə bəxş etdiyi əsas ünsürlər – hava, su, təbii qidalar, Günəş əsas rol oynayır. Əgər bunlardan biri olmazsa və ya yetərincə olmazsa bütün canlılar məhv olar. Təsəvvür edək ki, qaranlıq, havasız bir yerə bir parça daş qoymuşuq. O daşı bir müddət sonra çıxarsaq, onda heç bir dəyişikliyin getmədiyini görəcəyik. Ancaq bunu bitkilərə aid etmək olmaz. İstənilən bir bitkini ən yaxşı torpaqda becərsək də, ona daim su versək də, əgər Günəş işığı yoxdursa, o inkişaf etməyəcək. Çünki bitki daşdan fərqli olaraq canlıdır. İnsanlar da belədir. İnsanın fiziki varlığını sürdürməyə vadar edən əsas vasitə qandır. Tibb elminə görə, insan orqanizmində 70 trilyondan çox hüceyrə var ki, bu hüceyrələrin də əsas qidası qandır. Bu hüceyrələrin fəaliyyəti nəticəsində biz düşünür, qaçır, gülür, əl-qol açır və sair hərəkətlər edirik. Biz yalnız o zaman xəstələnirik ki, həmin hüceyrələr aktiv fəaliyyət göstərə bilmir. Dünyanın əksər naturopat alimlərinin gəldiyi yekdil fikir budur ki, bütün xəstəliklərin yaranmasının iki səbəbi var: ya qan təmiz deyil, yaxud qan orqanizmdə düzgün hərəkət (sirkulyasiya) etmir. Qanın təmiz olmamasına yeganə səbəb isə düzgün qidalanmamaqdır. Düzgün qidalanmamaq dedikdə çoxlarımız belə başa düşürük ki, bu, vaxtında qidalanmamaqdır. Lakin bu belə deyil. Yenə də təbii qidalanma üzrə məşhur alimlərin əsərlərinə müraciət etsək, görərik ki, düzgün qidalanma dedikdə təbii qidalardan istifadə nəzərdə tutulur. Təbii qidalar isə təbiətdən əldə edilən qidaların (meyvə-tərəvəz, göyərti, çərəz və sair) tərkibinə toxunmadan istifadə edilən qidalardır. Bu qida növlərinin tərkibində insan orqanizmi üçün faydalı olan xeyli sayda vitaminlər var ki, bunlar orqanizmdə qanın təzələnməsinə mühüm təsir göstərir. Həm də bu qidalar mədədə tez həzm olunur. Hamımıza məlumdur ki, həzm olunmayan qida qalıqlarının bir hissəsi orqanizmdən xaric olsa da, bir hissəsi də toksinlərə (zəhərli qida qalıqları) ayrılır. Bu toksinlər isə sonradan müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.

Bəs maraqlıdır, təbii qidalar niyə orqanizmdə parçalanır və sonadək həzm olunur, digərləri isə tam həzm olunmur? Cavab yenə də sadədir. Qısa cavab versək, insan orqanizmi bioloji olaraq təbii qidaların həzm edilməsinə "hesablanıb". Bundan əlavə, qeyd edək ki, orqanizm üçün qidadan da əvvəl vacib olan sudur. Su elə bir təbii nemətdir ki, bütün canlı bəşəriyyətin varolma səbəbidir. Buna görə də dünyanın məşhur tibb alimləri gündəlik olaraq 2,5-3 litr su qəbul etməyi məsləhət bilirlər. Böyük yapon alimi Katsudzo Nişi sağlam olmaq istəyən hər bir şəxsin gündəlik rasionunda təbii qidaların (meyvə-tərəvəz, göyərti, çərəz) 75 faizədək təşkil etməsini vacib sayır.

Təbii ki, sağlam yaşamağı özünə həyat tərzi seçmiş insan üçün qidalanmaq deyil, necə qidalanmaq əsas şərtdir. Qidalanmanı bir elm kimi təbliğ edən bir çox məşhur alimlərin əsərlərində bu şərtlərə rast gəlmək mümkündür. Onlardan ən əsası da qəbul ediləcək qidanın düzgün çeynənilməsidir. Bu gün çoxumuz fərqinə belə varmadan bu incə məqama diqqət etmirik. Qəbul edilən qidanı 40-50 dəfə çeynəmək həzm prosesini asanlaşdırmaqla bərabər, toksinə çevriləcək qalıqlara da yer vermir. Ancaq bu gün əksəriyyətimiz yeməyi tələsik yeməklə bunun nə qədər zərərli olduğunu düşünmürük. Buna görə də "Dişləri sağlam olanların orqanizmi də sağlam olar", – deyən alimlərin nə qədər haqlı olduğunu bir daha görürük.

Və nəhayət, pəhriz saxlamaq. Təəssüflər olsun ki, müasir həyatda pəhriz saxlamağı insanların çoxu müəyyən məqsədlər üçün edir. Unutmaq olmaz ki, hər bir fəaliyyət sisteminin istirahətə ehtiyacı olduğu kimi, orqanizmin də istirahətə ehtiyacı var. Hələ VII əsrdə Məhəmməd Peyğəmbər deyirdi: "Bütün dərdlərin çarəsi pəhrizdir". Bunun elmi sübutunu böyük naturopat alim, 8 yaşında ölüm yatağına düşmüş, 16 yaşında isə 9 dəhşətli xəstəlikdən əziyyət çəkmiş Pol Breq "Ac qalma möcüzəsi" adlı əsəri ilə bütün dünyaya bir daha sübut etdi.

"Dünyanın bütün akademiyalarından müdrik və ağıllı olan" (Avraam Zalmanov) canlı orqanizm nə istədiyini özü bilir. Yetər ki, ona düzgün qulluq edəsən. Yazını elə A.Zalmanovun ibrətamiz fikirləri ilə də yekunlaşdırırıq: "Bütün elmlərin zirvəsi və tacı sağlamlığa qulluq etmək elmidir, onu bilməyən nadandır".

✍ Səbuhi HƏSƏNOV

## Xroniki böyrək çatışmazlığı olan xəstələr dövlətimizə minnətdarlıq edirlər

Xroniki böyrək çatışmazlığı bu gün dünya tibb elminin qarşısını ala bilmədiyi ən ağır xəstəliklərdən biridir. Bu xəstəlik nəticəsində insan böyrəklərində olan nefronlar – sadə dillə desək, süzgəc toxumalar sıradan çıxır və böyrəklər orqanizmin filtri rolunu oynaya bilmir. Böyrək bədəndən zəhərli maddələri təmizləyib, ifraz edə bilmir. Zəhərli maddələrin bədəndə toplanması ölümlə nəticələnir. Bu cür xəstələrə dializ – qanı süni böyrək vasitəsilə təmizləmə tətbiq olunur. Onların qanı həftədə üç dəfə süni yolla bədəndən çıxarılır, süni böyrək aparatında süzülərək yenidən bədənə qaytarılır. Süni böyrək rolunu oynayan bu əməliyyat "hemodializ" adlanır. Bu üsul xəstəliyi tam müalicə edib aradan qaldırmır, yalnız xəstələrin ömrünün uzadılmasına kömək edir. Dünyada belə müalicə üçün ilk cəhdlər hələ 19-cu əsrin ortalarında edilsə də, onun insan üzərində uğurlu tətbiqi İkinci Dünya müharibəsinin qızğın dövründə – 1943-cü ildə Hollandiyada həyata keçirilib. Naxçıvan Muxtar Respublikasında hemodializ müalicəsinə ilk dəfə 2003-cü ildə başlanılıb. Son illərdə istər aparatların alınıb gətirilməsi, istər kadr hazırlığı istiqamətində məqsədyönlü addımlar atılır. Qeyd edilməlidir ki, əvvəllər xroniki böyrək çatışmazlığı olan xəstələr muxtar respublikamızda hemodializ aparatlarının məhdudluğu üzündən paytaxt şəhərimiz Bakıya, qonşu xarici ölkələrə gedirdilər. Naxçıvan Muxtar Respublika Xəstəxanasının Dializ bölməsinin müdiri Xumar Həsənovadan aldığımız məlumata görə, hazırda muxtar respublikanın səhiyyə müəssisələrində 24 müasir hemodializ aparatı fəaliyyət göstərir ki, onlardan da 10 ədədi Naxçıvan Diaqnostika-Müalicə Mərkəzindədir. Rayon mərkəzi xəstəxanalarında hemodializ xidməti üçün ayrıca şöbələr yaradılıb. Şöbələrdə xəstələrə Almaniya istehsalı olan müasir aparatlarla seanslar verilir. Şöbələr 2 növbəli, lazım gəldikdə isə 3 növbəli iş rejimində işləyir.

Qeyd edək ki, hazırda muxtar respublikada bu xəstəlikdən əziyyət çəkənlərin sayı 85-dir. Kəngərli rayonunun Xok kəndindən olan 1981-ci il təvəllüdlü Güldanə Hüseynovanın dediklərindən:

– Uzun illərdir, bu xəstəlikdən əziyyət çəkirəm. Əvvəllər Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə gedirdim. Bu, mənim üçün çox çətin olurdu. Eşidəndə ki, Kəngərli Rayon Mərkəzi Xəstəxanasında belə bir aparat olacaq, çox sevindim. Çünki dörd övladım var. Onların qayğıları bir ana kimi daha çox mənim üzərimə düşür. Zamanımın hər anı önəmlidir. İndi vaxtım çox itmir. Buradakı tibbi heyətdən də çox razıyam.

Culfa rayonundan olan şəhid atası Arif müəllim də bu xəstəlikdən əziyyət çəkir. O deyir:

– 78 yaşım olsa da, yaşamaq həvəsim böyükdür. Yaşım imkan vermir ki, çox yol gedəm. Bu xəstəliyə düçar olduqdan sonra vəziyyətim çox pis oldu. Əvvəllər rayonumuzun xəstəxanasında hemodializ xidməti yox idi. Bunun üçün xarici dövlətlərə üz tuturdum. Artıq o əzablı günlərim arxada qalıb. Rayonumuzda müasir xəstəxana tikilib. O zaman xəstəxana inşa olunanda ilk olaraq bu aparatın olub-olmaması ilə maraqlandım. Eşidəndə ki, belə bir aparat rayonumuzda da olacaq, çox sevinmişdim. Bunun üçün dövlətimizə minnətdaram.

Naxçıvan şəhərindən olan 1974-cü il təvəllüdlü Xatirə Cəfərova da muxtar respublikada xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanlara belə şərait yaradıldığına görə minnətdar olduğunu bildirdi. Naxçıvan şəhərindən olan İlyas Əliyev deyir:

– Mən də xroniki böyrək çatışmazlığından əziyyət çəkirəm. Əvvəllər muxtar respublikada bu xidmət olmadığından uzun müddət Bakı şəhərində qaldım. Çox əziyyətlər çəkdim. İndi şükür, həm ailəmin yanındayam, həm də Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində həkim tərəfindən təyin olunmuş proqrama uyğun olaraq, həftədə iki və ya üç dəfə 4 saat olmaqla, hemodializ xidmətindən yararlanıram. Onu da xüsusilə qeyd etməliyəm ki, pulsuz dərman preparatları ilə tam təmin olunuruq. Bunun üçün Naxçıvan Muxtar Respublikası rəhbərinə ailəm adından minnətdaram.

✍ Sara ƏZİMOVA

## "Araz-Naxçıvan" toplandı

*Ötən mövsüm Azərbaycan I divizionunun qalibi olan və Premyer-Liqaya yüksələn "Araz-Naxçıvan" futbol komandası yeni mövsümün hazırlıqlarına start verib.*

Şərur Olimpiya-İdman Kompleksində toplanan "qırmızı-ağlar" gündə iki dəfə olmaqla məşqlərini davam etdirirlər. Çempionluq sevinci yaşayan və bu uğuru Premyer-Liqada da davam etdirmək istəyən muxtar respublika təmsilçisi heyətinə də "əl gəzdirir". İlk olaraq, qapıçı Emil Balayev və yarımmüdafiəçi Elmin Çobanov komandanı tərk ediblər. Bununla yanaşı, Əziz Hüseynov, İrfan Hüseynov, Fərman Qəmbərov və Ruslan Abıyevin də komanda ilə müqaviləsi başa çatıb. Müqaviləsi başa çatan bəzi futbolçuların komandada qalıb-qalmayacağına isə komandanın baş məşqçisi Əsgər Abdullayev qərar verəcək. Hələ ki, təlim-məşq toplanışının ilkin mərhələsində bu futbolçular sınaqdan keçirilirlər. Əgər onlar özlərini doğruldarlarsa, klubla müqavilələri uzadılacaq.

"Araz-Naxçıvan" düşərgəsinə yeni futbolçular da gətirilib. Onlar qarşıdakı bir həftə ərzində öz oyun bacarıqları ilə baş məşqçi Əsgər Abdullayevin diqqətini çəkməyə çalışacaqlar. Bu ayın sonunadək heyət tam olaraq formalaşacaq.

Qeyd edək ki, Premyer-Liqanın püşkatma mərasimi iyul ayının ortalarında keçiriləcək və bundan sonra "Araz-Naxçıvan"ın rəqiblərinin sıra ardıcıllığı bəlli olacaq.

## Naxçıvanlı futbolçular "Real Madrid"də

Ötən ay Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Realmadrid Fondu ilə birgə həyata keçirdiyi "Futbol vasitəsilə uşaqların sağlamlıqlarının qorunması və sosial həyata inteqrasiyası" layihəsi çərçivəsində yaradılan məktəbin açılışı oldu. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi təlim Şərur rayonunda keçirilmişdi. Həyata keçirilən layihə artıq öz bəhrəsini verməkdədir. Bir aydır, fəaliyyət göstərən məktəb tərəf-müqabili olan "Real Madrid" futbol klubu ilə artıq iş birliyinə start verib. Belə ki, uşaq futboluna böyük önəm verən Naxçıvanın iki futbolçusu İspaniyaya yollanıb. 13 yaşlı Yasin Əliyev və Cəbrayıl Yusifov artıq Madriddədirlər və onlar ispan klubunun 13 yaşlılardan ibarət qruplarında məşqlərə başlayıblar. Futbolçularımızın bir il İspaniyada qalacağı və burda futbolun sirlərini öyrənəcəyi gözlənilir.

✍ Ceyhun MƏMMƏDOV


## Elanlar

Muxtar respublikaya 2009-cu ildən başlayaraq yüksək məhsuldar qaramal cinsləri gətirilərək sahibkarlara lizinq yolu ilə satılmışdır.

Ötən dövr ərzində Babək rayonu ərazisində həmin cinslər yetişdirilməklə damazlıq təsərrüfat yaradılmışdır. Həmin təsərrüfatda ana mallardan süni yolla mayalandırılmaqla artıq 3-cü nəsil balalar alınmışdır. Alınan balalar yerli şəraitə yaxşı uyğunlaşdığından xəstəliklərə qarşı davamlı olmaları ilə yanaşı, böyüyərək diri çəkiləri 500-600 kiloqrama çatmaqla, bala verdikdən sonra yaxşı yemləmə şəraitində gün ərzində 25-30 litr süd verirlər.

Hazırda həmin təsərrüfatda "Şvis", "Simmental" və "Holşteyn-friz" cinslərindən olan düyələrin yetişdirilərək lizinq yolu ilə satışı təşkil olunmuşdur.

Sahibkarlar "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ilə əlaqə yaradıb damazlıq təsərrüfatından lizinq yolu ilə damazlıq düyələr ala bilərlər.

***"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti***
***Əlaqə telefonları: (036) 545-06-67***
***(036) 545-15-69***

* * *

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti mərkəzi və rayon bazalarında mövcud olan bütün növ işlənmiş kənd təsərrüfatı texnikalarının satışını təşkil edir.

Torpaq mülkiyyətçilərinə köməklik məqsədilə həmin texnikaların qalıq dəyərinin 50 faizi həcmində satılması və ya 10 (on) il müddətinə lizinqə verilməsi təklif olunur.

**Əlaqə telefonları:**

*Şərur bazası* 036-542-36-94, 050-644-54-60
*Babək bazası* 036-545-15-69, 050-328-81-30
*Ordubad bazası* 070-340-83-17
*Culfa bazası* 060-554-16-25, 050-537-90-34
*Kəngərli bazası* 050-434-48-33
*Şahbuz bazası* 050-385-56-62
*Sədərək bazası* 050-567-12-82


**Allah rəhmət eləsin**

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşları Ramiz Qurbanova, atası
**XUDAQULUNUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Bildiriş**

"Araz" Təhsil Tədris Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti dayandırıldığından ləğv olunur.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan: AZ-7000,**
***Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail: *serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 548**